# XAQANİ ŞİRVANİNİN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Dünya şöhrətli Azərbaycan şairi, mütəfəkkir, Azərbaycanda İntibah dövrü ədəbiyyatının ilk qüdrətli nümayəndəsi Əbu Bədil Əfzələddin İbrahim İbn Əli Nəccar İbn Osman İbn İbrahim Həqaiqi Həssanül-Əcəm Xaqani Şirvani 1126-cı ildə Şamaxıda anadan olmuşdur.***

| | |
|---|---|
| **1134** | 8 yaşında atasını itirmiş, dövrünün tanınmış alimi olan əmisi Kafiəddin Ömərin himayəsində təhsil almışdır. |
| **1140** | Əbül-Üla Gəncəvi ilə tanış olur, onun şagirdi olur. |
| **1140-1145** | Şirvanşahlar sarayına dəvət olunmuş, Əbül-Üla Gəncəvinin tövsiyəsi ilə “Xaqani” (xanların şairi) təxəllüsünü qəbul etmişdir. |
| **1152-1155** | III Məniçöhr və onun varislərinə həsr etdiyi qəsidələrlə şöhrət qazanır. |
| **1156** | Saray əyləncələrindən və ikiüzlülükdən narazı qalan şair Şirvanşahdan ayrılmaq istəyərkən həbs olunmuş, məşhur “Həbsiyyə” silsiləsindən olan şeirlərini bu dövrdə yazmışdır. |
| **1156** | Həcc ziyarətinə yola düşmüş, İraq, Suriya və Hicaz ərazilərini gəzmişdir. Bu səyahət onun məşhur “Töhfətül-İraqeyn” (İki İraqın hədiyyəsi) poemasının yaranmasına vəsilə olmuşdur. |
| **1173** | Ailəsi ilə birlikdə Şirvanı tərk etmiş, Təbrizə köçmüşdür. |
| **1176** | İkinci Dəfə Kəbə ziyarətində olur, oradan Təbrizə qayıdıb burada daimi məskunlaşır, ömrünün sonuna qədər təbrizdə yaşamışdır. |
| **1199** | Təbriz şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur. Şairin məzarı Təbrizin Sürxab qəbiristanlığındakı “Şairlər məqbərəsi” adlanan yerdədir. |

| | |
|---|---|
| **1955** | Məmməd Rahim tərəfindən “Xaqani” mənzum dramı yazılmışdır. |
| **1980** | “Xaqani” filmi çəkilmişdir. |
| **2004** | “Seçilmiş əsərləri” çap olunmuşdur. |
| **2005** | “Seçilmiş əsərləri” çap olunmuşdur. |
| **2013** | “Seçilmiş əsərləri” çap olunmuşdur. |
| **2019** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli Qərarı ilə Şirvani Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. |
| **2020** | Sona Abbasəliqızı tərəfindən “Sözün xaqanı” romanı yazılmışdır. |
| **2020** | AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ortaq başlanğıc və İntibah dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin alimlərindən ibarət kollektiv tərəfindən “Xaqani Şirvani həyatı və yaradıcılığı” kitabı çap olunmuşdur. |
| **2022** | Şabran şəhərində “Xaqani Poeziya Evi”nin qarşısında heykəli qoyulmuşdur. |
| **2026** | Azərbaycan Şairi Xaqani Şirvaninin 900 İllik Yubileyinin Qeyd Edilməsi Haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. |